# Tran Dinh NHA: "Vyetnam xalqı Heydər Əliyevi özü üçün böyük dost hesab edir"

Azərbaycanın Vyetnamdakı səfirliyinin təşkilatçılığı ilə paytaxt Hanoyda xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş, hər iki ölkə bəstəkarlarının əsərlərindən ibarət klassik musiqi konserti keçirilib.



Vyetnam Parlamentinin, Kommunist Partiyasının, dövlət və hökumət qurumları rəsmilərinin, diplomatların, Azərbaycanın ali təhsil ocaqlarının vyetnamlı məzunlarının iştirak etdikləri tədbirdə əvvəlcə ulu öndər Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Səfir Anar İmanov müasir müstəqil Azərbaycanın memarı və qurucusu olan ümummilli liderin ölkəmizin inkişafında və müstəqilliyinin möhkəmlənməsində əvəzsiz xidmətlərindən danışıb. O həm Sovet İttifaqı dövründə, həm də müstəqillik illərində Azərbaycana rəhbərlik edən Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkəmizin bütün sahələr üzrə daim yüksək nailiyyətlər əldə etdiyini bildirib.

Görkəmli siyasi xadim Heydər Əliyevin Azərbaycan ilə Vyetnam arasında əməkdaşlığın qurulmasındakı rolundan bəhs edən səfir A.İmanov bu xüsusda ulu öndərin 1983-cü ildə Vyetnama səfərinin böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Diplomat əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasi kursu Prezident İlham Əliyevin uğurla davam etdirdiyini diqqətə çatdırıb.

Yeni Azərbaycan Partiyasının (YAP) icra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycan tarixində XX əsrin son 30 ilinin məhz Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. Ulu öndərin siyasi və ictimai fəaliyyətini hər zaman Azərbaycan xalqının və dövlətinin inkişafına həsr etdiyini diqqətə çatdıran M.Qurbanlı ümummilli liderin müdrik siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycanın dinamik inkişaf edən, güclü iqtisadiyyata malik ölkəyə çevrildiyini deyib.

Vyetnam Parlamentinin təhlükəsizlik və müdafiə komitəsinin sədr müavini, Vyetnam-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Tran Dinh Nha Heydər Əliyevin dahi şəxsiyyət, tanınmış siyasətçi və müdrik dövlət başçısı kimi özündən sonra böyük irs qoyduğunu vurğulayıb. O, Vyetnam xalqının Heydər Əliyevi hər zaman özü üçün böyük dost hesab etdiyini və onun xatirəsini dərin hörmətlə yad etdiyini diqqətə çatdırıb.

Tədbir Vyetnam Dövlət Opera və Balet Orkestrinin üzvlərinin ifasında Azərbaycan və Vyetnam bəstəkarlarının musiqi əsərlərindən ibarət konsert proqramı ilə davam edib. Konsertin tamaşaçıları həmçinin ulu öndərin həyat və fəaliyyətini, eləcə də 1983-cü ildə Vyetnama səfərini əks etdirən fotosərgi ilə tanış olublar.

YAP icra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının rəhbərliyi ilə Vyetnamda səfərdə olan Azərbaycan nümayəndə heyəti ulu öndərin Azərbaycan səfirliyindəki büstünü ziyarət edib.

Azərbaycan. - 2015.- 13 dekabr.- S.4.